# Festivallar şəhəri sərhədlərə "yox" deyir

## *Dünya şöhrətli musiqiçilər bu dəfə də Qəbələdən məmnunluqla ayrıldılar*



Ötən həftə ərzində Qəbələ sərhəd və rəqabət tanımayan musiqi dünyasında gözəl birlik hissi yaşadan daha bir bayrama şahidlik etdi. İyulun 30-da Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Qəbələdə keçirilən VIII Beynəlxalq Musiqi Festivalının rəsmi açılış mərasiminə start verilməsi buradakı musiqi alətləri ilə qürurlu, əzəmətli dağların harmoniyasını sintezləşdirmiş oldu.



"Bizim festival Azərbaycanın ən gözəl guşələrindən biri olan Qəbələdə keçirilir. Bu gün qala divarlarının və məbədlərin qalıqları bu şəhərin qədim zamanlarda əfsanəvi dövlətin - Qafqaz Albaniyasının paytaxtı olduğunu xatırladır. Məhz Qafqaz Albaniyası dövründən tolerantlıq ənənələrinin qorunub saxlanıldığı, müxtəlif xalqların və dinlərin nümayəndələrinin əsrlər boyu sülh içində yaşadığı, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqi və inkişafına daim öz töhfəsini verən Azərbaycan son illər beynəlxalq musiqi və incəsənət festivallarının, konfrans və sərgilərin, idman yarışlarının keçirildiyi məkan kimi tanınmaqdadır".

Bu fikirlər isə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın festival iştirakçılarına təbrik məktubunda səslənib.

2009-cu ildə Qəbələdə musiqi festivalının keçirilməsi ilə milli musiqi mədəniyyəti tarixində yeni ənənənin təməli qoyulub. Beynəlxalq mədəni əlaqələrin genişləndirilməsi, zəngin musiqi mədəniyyətimizin dünya ictimaiyyətinə çatdırılması, xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsi işinə xidmət edən bu festival artıq gözəl bir ənənəyə çevrilərək öz beynəlxalq nüfuzunu ildən-ilə artırır.

Nəticə isə göz qabağındadır: Qəbələ artıq tanınmış musiqiçilərin, sənətsevərlərin sevimli görüş yeridir. Festival Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni həyatında mühüm hadisəyə çevrilib.

Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir.

Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin konsertinə mindən çox tamaşaçı qatılıb. Konsertdə Üzeyir Hacıbəylinin, Niyazinin, Fikrət Əmirovun, Qara Qarayevin, Cakomo Puççininin, Cüzeppe Verdinin, C.Rossininin əsərləri isə tamaşaçılarda xoş ovqat yaradıb. Dövlət Akademik Opera və Balet Teatrının solisti, xalq artisti Samir Cəfərovun, Azərbaycan Televiziya və Radiosunun solisti Aytac Şıxəlizadənin çıxışları da konsertə fərqli rəng qataraq tamaşaçı alqışı ilə qarşılanıb.

Festivalın xüsusi qonağı olan xalq artisti, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu da Qəbələ Beynəlxalq Musiqi Festivalının əhəmiyyətindən danışıb. Belə bir musiqi bayramının təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkürünü bildirib. Xalq və bəstəkar musiqilərini səsləndirən Polad Bülbüloğlunu gənc dirijor Murtuza Bülbülün idarəsi ilə Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

Birinci xanım Mehriban Əliyevanın məktubunda qeyd edildiyi kimi, Qəbələ Beynəlxalq Musiqi Festivalı öz möhtəşəmliyi ilə xarici və yerli musiqiçilərin dərin rəğbətini qazanıb. Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizin birinci xanımı Mehriban Əliyeva artıq neçə ildir ki, bu musiqi festivalının respublikamızın dilbər guşəsi olan Qəbələdə keçirilməsinə yaxından dəstək verirlər. Bu beynəlxalq musiqi bayramı ölkəmizdə multikultural dəyərlərin böyük əhəmiyyət kəsb etməsinin göstəricisidir. Musiqinin gücü o qədər qüdrətli və sərhədsizdir ki, dünyanın müxtəlif ölkələrindən bu festivala gələn məşhur solistlərin, orkestrlərin ifası ilə mənəvi yaxınlığı hiss etməyə imkan verir.

Festivalın bədii rəhbəri Dmitri Yablonski də tədbirlə bağlı düşüncələrini bölüşərək bildirib ki, bu günlər Qəbələ yenidən möhtəşəm, dünya səviyyəli növbəti bir festivala evsahibliyi edir. Festivalın proqramı hər il daha da zənginləşir. Bu il də dünyanın ən məşhur musiqi kollektivləri Qəbələyə gəlib. O, festivalın bədii rəhbərlərindən biri olaraq göstərilən diqqət və qayğıya, dünya musiqisinə verdikləri töhfəyə görə Azərbaycan Prezidentinə və onun xanımına dərin təşəkkürünü ifadə edib.

Təkcə cari ilin birinci yarısı ərzində Qəbələdə həyata keçirilən tədirlərin səviyyəsinə, keyfiyyət göstəricilərinə nəzər yetirdikdə bu məkanın əhəmiyyəti bir daha göz önündə canlanır. Rayonda 2016-cı ilin birinci yarımili ərzində bir neçə beynəlxalq və respublika səviyyəli yarış keçirilib. Bunların sırasında "Tour d'Azerbaidjan-2016" Beynəlxalq velosiped turniri və Olimpiya Atıcılıq növləri üzrə III Beynəlxaq Qran-pri yarışlarını, "Gənc xilasedici və yanğınsöndürən" V respublika birinciliyi və IV Beynəlxalq yarışını göstərə bilərik. Həmçinin MDB iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında saziş iştirakçılarının bədən tərbiyə və idman üzrə şurasının iclası, yeniyetmələr arasında sərbəst güləş, cüdo və taekvondo idman növləri üzrə Qəbələ rayon açıq turnirləri də keçirilib.

Möhtəşəmliyi ilə seçilən xarici və yerli musiqiçilərin dərin rəğbətini qazanan festivalın proqramına uyğun olaraq Qəbələ səhnəsində Azərbaycanın və dünyanın dahi bəstəkarlarının əsərləri səsləndirilib. Festivalın keçirildiyi açıq səhnədə və kamera zalında dünya şöhrətli musiqiçilərlə yanaşı, gənc ifaçılar da çıxış ediblər. Burada klassik və kamera musiqisi, muğamlarımız ifa olunub, pianoçuların beynəlxalq müsabiqəsi keçirilib. Festival boyunca Azərbaycan, Avstriya, Bolqarıstan, Rusiya, Türkiyə, Ukrayna, ABŞ, İtaliya, Fransa, İspaniya, İsrail, Litva və Kubadan olan görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar tamaşaçılar qarşısında öz məharətlərini göstəriblər.

Festivalın bağlanış mərasimində Ukraynanın "Kiyev virtuozları" Simfonik Orkestrinin konserti olub. Festivalın bədii rəhbəri, "Kiyev virtouzları" Simfonik Orkestrinin musiqi rəhbəri, dünya şöhrətli violençel ifaçısı Dmitri Yablonskinin dirijorluğu ilə keçirilən konsertin solistləri - İtaliyanın "La-Scala" Akademiyasının tələbəsi Azər Rzazadə (tenor), bir neçə beynəlxalq müsabiqənin qalibi, italiyalı musiqiçi Federika Lombardi (soprano), Almaniyanın Nürnberq Opera Teatrının solisti Cavid Səmədov (bariton), bir sıra beynəlxalq festivalların iştirakçısı rusiyalı Arkadi Şilkloper (truba) olub.

Qeyd edək ki, dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı da mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verdi.

Bu qəbildən olan tədbirlərin davamlı şəkildə keçkirilməsi ölkəmizdə mövcud olan siyasi sabitliyin və davamlı olaraq bu məkana üz tutan insanlara göstərilən xoş münasibətin təzahürüdür. Belə bir münbit şəraitin yaranması isə ilk növbədə, ölkəmizin düşünülmüş siyasət yürüdən dövlət başçısına malik olması və xalqın öz rəhbəri ətrafında sıx birləşməsinə bağlıdır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***